


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 227 (24.364)

*7 dekabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib




Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu keçirilib.

Tədbirdə 30 ölkəni təmsil edən 60 xarici ekspert iştirak edib.

## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayanı qəbul edib.

Görüşdə ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif aspektlərinin müzakirəsi və regional məsələlər ətrafında fikir mübadiləsinin aparılması baxımından əhəmiyyəti qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu deyərək ölkələrimizin Azərbaycanın müstəqilliyi illərində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini, Azərbaycan ərazilərinə silah-sursat və hərbi qulluqçular göndərdiyini, separatizmi dəstəklədiyini qeyd edərək, Azərbaycanın antiterror tədbirlərini öz suveren ərazilərində keçirdiyini, təcavüzkar separatizmə son qoyduğunu və əməliyyatın keçirilməsi zamanı nümunəvi şəkildə beynəlxalq humanitar hüququn tələblərinə riayət etdiyini, mülki insanlara və infrastruktura hər hansı zərərin dəymədiyini diqqətə çatdırdı.

Ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, münaqişə başa çatandan və Azərbaycan suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olunması üçün tarixi imkanlar yaranıb və ABŞ-da yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə bilər.

Prezident İlham Əliyev enerji sahəsində əməkdaşlığı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu və bərpaolunan enerji potensialının inkişafı istiqamətində Xəzərdə və Qara dənizdə həyata keçirilən layihələri qeyd etdi.

Dövlətimizin başçısı regionda Orta Dəhliz üzrə yeni nəqliyyat-logistika imkanlarının yarandığını, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə tərəfdaşlığının daha da genişləndiyini dedi və bu istiqamətdə yeni əməkdaşlıq imkanları barədə danışdı.

Ceyms O'Brayn öz növbəsində ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaşlar olduqlarını vurğuladı. O, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın roluna toxundu, ölkəsinin regionda sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini dedi, bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırdı.

Ceyms O'Brayn Transxəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyini vurğuladı. O, ABŞ-Azərbaycan münasibətlərində gələcəyə baxışın vacibliyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərin irəli aparılması üçün qarşılıqlı səfərlərin bərpa edilməsi müsbət addım kimi dəyərləndirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı qeyd olunub



*Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib və abidə önünə gül dəstələri düzüblər.*

Nazirliyin Aparatının və tabeli qurumlarının iştirakı ilə Gənclər Fondunda davam edən tədbirdə nazir müavini, nazir vəzifələrini icra edən Rahid Ələkbərli çıxış edərək bildirib ki, rabitə sahəsində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev tərəfindən həyata keçirilmiş məqsədyönlü siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda informasiya əsrinin müəyyən etdiyi qlobal çağırışlar nəzərə alınaraq ölkəmizdə rabitə və yeni texnologiyaların inkişafı ilə bağlı bir çox konseptual strategiyalar və çoxsaylı müvafiq Dövlət proqramları qəbul edilib. Muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı, eləcə də əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Həmçinin rabitə sahəsi üzrə yeniliklər və gələcək perspektivlər haqqında da tədbir iştirakçılarına ətraflı məlumatlar verilib.

Sonra məruzə ətrafında nazirliyin əməkdaşlarının çıxışları dinlənilib, o cümlədən fəaliyyətlərində fərqlənən bir qrup əməkdaş Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinin fəxri fərmanları və "Rabitə ustası" fəxri adı ilə təltif ediliblər.

Sonda rabitə sahəsində görülmüş işlərə dair videoçarx nümayiş olunub.

*Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidməti*

## Penitensiar Xidmətdə qazilərlə görüş

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində Vətən müharibəsi qaziləri ilə görüş keçirilib. Görüşdə xidmətin rəisi, nazirliyin aparatının əməkdaşları, cəzaçəkmə müəssisələrinin rəisləri, Mühafizə Taborunun komandiri, xidmətin əməkdaşları və şəhid yaxını olan əməkdaşlar iştirak ediblər.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Penitensiar Xidmətin rəisi Emin Kazımov çıxış edərək bildirib ki, tədbir Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərdə şanlı tarix yazan oğullarımızın qəhrəmanlıqları barədə xatirələrini bölüşməsi, eyni zamanda Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, yaralanan qazilərimizə, hərbçilərimizə minnətdarlıq və ehtiramın ifadə olunması, onlara və ailələrinə dövlət qayğısının hiss etdirilməsi məqsədilə təşkil edilib. Ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına və qazilərə yüksək dövlət qayğısının göstərildiyini vurğulayan Emin Kazımov bildirib ki, bu sahədə görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir.

Mühafizə Taborunun rəisi Ramin Əsgərov çıxışında 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyin hər bir azərbaycanlının ən böyük arzusu olduğunu və həmin arzunun



Azərbaycan Ordusu tərəfindən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gündə reallaşdırıldığını bildirib.

Tədbirdə çıxış edən "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədri Ceyhun Bayramov, birliyin sədr müavini Əli Əlisoy və qazi Pərviz Muradov müharibə dövrü xatirələrindən bəhs edib, Vətən müharibəsi şəhidlərinin xatirəsinin yaşadılması, qazilərlə görüşlərin keçirilməsi istiqamətində görülən işlərin mənəvi dəstək olduğunu qeyd edərək belə təşəbbüskarlığa və vətənpərvərliyə görə minnətdarlıqlarını bildiriblər.

Xidmətin rəisi tərəfindən qazilərə tədbirdə iştirak etdikləri üçün minnətdarlıq ifadə edilib, onlara "Təşəkkürnamə"lər və qiymətli hədiyyələr təqdim olunub.

Sonra Zəfərə gedən yoldan bəhs edən "Komandirlər danışır" sənədli filmi izlənilib. Tədbir iştirakçıları ilə qazilərin xatirə fotoşəkilləri çəkilib.

Çay süfrəsi ilə tədbir davam edib.

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti*



# Heydər Əliyev İli

*Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1990-cı il iyulun 20-də böyük maneələri aşaraq Moskvadan Bakıya, iki gün sonra isə doğulub boya-başa çatdığı Naxçıvana qayıtmışdır. Ulu Öndər Heydər Əliyev Naxçıvana gəldiyi ilk günlərdən bir çox yerli və xarici ölkələrin mətbuat orqanlarına müsahibələr vermiş, bu müsahibələrdə dövrün ictimai-siyasi proseslərinə münasibətini açıqlamışdır. Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi tərəfindən informasiya blokadasına salınan dahi şəxsiyyətin ən geniş və ölkədə böyük rezonans doğuran müsahibələrindən biri də həmin dövrdə Azərbaycan Kommunist Partiyası Saatlı Rayon Komitəsinin və Xalq Deputatları Sovetinin rəsmi orqanı olan "Dönüş" qəzetinin 1990-cı il 23, 25, 28 avqust tarixlərində dərc olunan müsahibə idi. Mütəllibov hakimiyyətinə güllə kimi dəyən bu müsahibənin dərcindən sonra müəllif Fəxrəddin Ağamirzəyev "öz ərizəsilə" işdən azad edilmiş, bir daha əlinə qələm almamaq şərtilə dilindən yazılı iltizam alınmışdır. "Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə "Heydər Əliyevlə müsahibə"ni oxucularına təqdim edir.*

## Heydər Əliyevlə müsahibə



***(Əvvəli qəzetin 6 dekabr 2023-cü il tarixli nömrəsində)***

***– Son vaxtlar mətbuatda sizin haqqınızda bir sıra məqalələr verilmişdir ki, sizin dövrünüzdə respublikada pambıqçılığın inkişafı və Sumqayıt, Bakı, Gəncə və sair şəhərlərdə iri sənaye müəssisələrinin tikilməsi ekologiyaya ciddi ziyan vurmuşdur. Həm də bütün bunları birbaşa sizinlə əlaqələndirirlər.***

– Bunlar hamısı böhtandır. Onları yayan adamların əlində heç bir əsas yoxdur. Mən hər bir şəxslə, bax bu fikirləri irəli sürən şəxslə görüşüb, mübahisə aparıb və bu fikirlərin yalan olduğunu sübut etməyə hazıram.

Pambıqçılıq Azərbaycan Respublikasının ənənəvi kənd təsərrüfatı sahəsidir. Mən respublikada fəaliyyət göstərdiyim dövrdə bu məsələlərlə çox dərindən məşğul olmuşam və pambıqçılıq Azərbaycan üçün yeni bir sahə deyildir. 70-ci illərdə pambıqçılıq Azərbaycanda böyük sürətlə inkişaf etmişdir. Bu da demək Azərbaycanın pambıq sahələrinin məhsuldarlığının artırılması və Azərbaycan kəndlilərinin rifah halının yaxşılaşdırılması üçün olan tədbirlərdir. Pambıqçılıqdan Azərbaycan kəndlisi heç bir ziyan götürməyibdir və pambıqçılıq Azərbaycan iqtisadiyyatının inkişafına çox böyük kömək edibdir. Mən pambıqçılığın Azərbaycana zərərli olduğu fikirlərlə qətiyyən razı deyiləm. Mən sizə deyə bilərəm ki, biz işlədiyimiz dövrdə pambıqçılıq sahəsində böyük ixtisaslaşma gedib. Məsələn, 1969-cu ildə pambıqçılıqla 32 rayon məşğul idi. Ancaq 1982-ci ildə pambıqçılıqla 18 rayon məşğul olmuşdur. Deməli, 14 rayondan lazımi səviyyədə səmərəli olmadığına görə pambıq bitkisini götürüb orada üzüm və başqa bitkilər əkilməsini lazım bilmişik. Ancaq 18 rayonda əlavə torpaqların istifadəyə verilməsi nəticəsində olan torpaqların məhsuldarlığının artırılması sayəsində pambıqçılıq yaxşı inkişaf etmişdir və Azərbaycan kəndlilərinə də xeyir vermişdir. O fikir yalandır.

O ki qaldı Azərbaycanda bəzi sənaye obyektlərinin tikilməsi, guya ki, Azərbaycan ekologiyasına zərər vurub, bu fikirlə də razı deyiləm. Məsələn, siz Gəncə şəhərini yada saldınız. Gəncə şəhərində mən Azərbaycanın rəhbəri olduğum dövrdə ekologiyanı pozan heç bir sənaye müəssisəsi tikilməyib. Gəncənin ekologiyasını indiyə qədər pozan Gəncə alüminium zavodudur. Gəncə alüminium zavodu hələ 1950-ci illərdə tikilibdir. Mən işlədiyim dövrdə o zavodun texnologiyasında çox böyük dəyişikliklər əmələ gətirilib ki, alüminium istehsalı zamanı oradan tozlar çıxıb atmosferi zibilləyən maddələrin miqdarı azalsın. Hətta alüminium zavodu vaxtilə Daşkəsən rayonunda olan alunit yataqlarının əsasında tikilmişdir. Əvvəl layihə belə olmuşdur ki, o yataqlarda olan alunitləri götürüb alüminium zavodunda onları istehsal edəndən sonra qliniazion alınır. Qliniazionu da istehsal edib alüminium alırlar. Ancaq biz gördük ki, bu alunitin istehsalı Gəncənin mühitini çirkləndirir. Biz Moskvanın qarşısında məsələ qaldırdıq ki, alunit əvəzinə xaricdən oksid alıb gətirək. Bu oksidin emal olunması da alunitə nisbətən atmosferə çıxan çirklənmənin qarşısını alır. Deməli, mən təmiz vicdanla deyə bilərəm ki, işlədiyim dövrdə burada elə tədbirlər görülüb ki, o Gəncənin atmosferinin zibillənməsi ya azalsın, ya tamamilə ləğv olunsun. O ki qaldı Gəncədə tikilən başqa sənaye müəssisələrinə. Məsələn, götürək xalça fabrikini, yaxud da ki, orada elektron zavodu, yaxud orada mən işləyən dövrdə başlanan avtomobil zavodu, başqa maşınqayırma zavodları, yaxud da çini qablar zavodu – hamısı Gəncənin sənaye potensialını yaxşı artırıb, orada yeni iş yerləri yaradıb, əhalinin işləməsi üçün şərait yaradıbdır və onlar hamısı mütərəqqi sənaye sahələridir. Bunların heç birisini Gəncə üçün zərərli hesab etmirəm. Sumqayıtı götürək. Oranın atmosferini zəhərləyən və eyni zamanda Xəzər dənizinə tullantılar üçün şərait mən Mərkəzi Komitəyə işə gəlməzdən əvvəl yaranmışdır. Bizim dövrümüzdə orada belə müəssisələr yaranmamışdır. Hətta mən deyə bilərəm ki, biz işlədiyimiz dövrdə bizə məlum oldu ki, Sumqayıtda lindan istehsalı qurğusu yaratmaq qərara alınıb. Mən bunu eşidən kimi maraqlandım ki, bunu Azərbaycanın rəhbərliyinin razılığı olmadan nə üçün qərara salıblar. Aydın oldu ki, bizim respublikanın rəhbərliyinin, o cümlədən mənim və Nazirlər Sovetinin sədri – o vaxtlar İbrahimov Xəlil İsmayıl oğlunun bu məsələdən xəbəri olmamış, bunu Moskvada kimya naziri Konstandov qərara salmışdır. Və buna da, təəssüf ki, Azərbaycanın Plan Komitəsinin işçilərindən biri razılıq vermişdir. Mən bunu bilən kimi dərhal bu qurğunun Azərbaycanda tikilməsini qadağan etdim. Və Azərbaycanda işlədiyim dövrdə bu qurğu Azərbaycanda tikilməmişdir. Ancaq mən Azərbaycandan Moskvaya işə keçəndən sonra görsənir ki, Konstandovun təzyiqinə Azərbaycan rəhbərləri müqavimət göstərə bilməmişlər. Ona görə də bu lindan qurğusu məndən sonra tikilmişdir. Ona görə də mənim bu barədə, yenə də qeyd etmək istəyirəm ki, vicdanım təmizdir. Mən indi də hər bir auditoriyada bu məsələlər haqqında öz fikrimi də deyə bilərəm və istənilən adamlara izahat da verə bilərəm.

***– Məlumdur ki, sizin haqqınızda çoxlu şayiələr gəzir. Siz bunları eşidirsinizmi? Eşidirsinizsə bu məlumatları haradan alırsınız?***

– Bilirsinizmi, şayiələri, adətən, ayrı-ayrı insanlar yaradırlar. Və bəzən də onları haradansa götürüb uydururlar, heç bir əsası olmadan. Ona görə mən buna belə yanaşıram ki, rəhbər səviyyədə olan şəxslər haqqında həmişə şayiələr yaranıbdır. Mən də uzun müddət Azərbaycan Respublikasının rəhbəri olmuşam. Sonra bir neçə il Moskvada yüksək səviyyədə fəaliyyət göstərmişəm. Odur ki, haqqımda cürbəcür şayiələrin yaranıb yayılması mənim üçün o qədər də təəccüblü deyil. Çünki bu bəzi insanlara xas olan keyfiyyətdir. Mənim haqqımda böhtanlar olubdur, bu böhtanların bir hissəsi ayrı-ayrı mətbuat orqanlarında dərc olunub, bir hissəsi də ağızdan-ağıza şayiə kimi yayılıb. Mən bunların hamısına, necə deyərlər, nifrət edirəm. Çünki bunlar hamısı yalandır, uydurmadır, böhtandır və bu cürə şayiə yayanları mən şəxsiyyətsiz adam kimi qəbul edirəm.

***– Sizin tərəfdarlarınız olduqca çoxdur. Əleyhdarlarınız da var. Onlara sözünüz.***

– Mən tərəfdarlarıma öz minnətdarlığımı bildirirəm. Ancaq əleyhimə olan adamlara isə demək istəyirəm ki, onların heç birisinin ədalətli olaraq mənim əleyhimə çıxmalarına heç bir əsasları yoxdur. Mən əleyhimə söz gəzdirən, fikir söyləyən hər bir adamla görüşüb ona sübut etməyə qadirəm ki, onun mənim haqqımda yaydığı böhtanlar, yaxud da ki, mənim haqqımda pis fikirlərdə olmasına əsas yoxdur. Mən respublikanın rəhbəri olmuşam, özü də həmişə prinsipial mövqe tutmuşam. Xalqın mənafeyi üçün çalışmışam, xalqın hər bir sadə adamının hüquqlarını qorumaq üçün çalışmışam. Və belə bir gərgin, mübariz işdə, şübhəsiz ki, ayrı-ayrı adamlar istədiyi mövqelərdən uzaqlaşıblar, bəzən də, məsələn, istədiyi niyyətləri həyata keçirə bilməyiblər. Onlar buna görə məndən narazıdırlar. Ancaq onlar özləri-özlərinə ədalətlə yanaşsalar, onlarda özünütənqidi keyfiyyət olsa, onlar bu öz xırda insani hisslərindən bir az yuxarıya baxsalar, gərək, mənim əleyhimə olmasınlar.

***– Son 70 ildə Azərbaycan tarixində hələ açılmamış səhifələr var ki, bu, xalqımız üçün bir sirdir. Sizin bu barədə sözünüz.***

– Bəli, mən də belə fikirdəyəm ki, Azərbaycan xalqının tarixində hələ açılmamış səhifələr çoxdur. Mən Azərbaycan Respublikasına rəhbərlik etdiyim dövrdə Azərbaycanın tarixi ilə daim maraqlanmışam. Bir çox tarixi məlum olmayan materiallarla arxivdən öyrənib tanış olmuşam, ona görə də Azərbaycanın elə bu 70 illik tarixində açılmayan səhifələrin olduğu mənə hələ indi yox, bir çox illər bundan qabaq da məlum idi. Və bizim işlədiyimiz dövrdə də hələ xalq üçün tamamilə aşkar olmayan faktlar vardır. Azərbaycan Respublikasının vəziyyəti, ona olan cürbəcür səviyyələrdə münasibət, bunlar, şübhəsiz ki, vaxtilə açılmalıdır. Mən belə güman edirəm ki, vaxt gələcək bunların hamısı açılacaq.

***– Respublikamızın gələcəkdə tam suverenliyinə, onun müstəqilliyinə inamınız varmı? Bu mübarizədə xalqa məsləhətiniz.***

– Mütləq. Azərbaycan Respublikası müstəqil olmalıdır, suverenliyini təmin etməlidir. Ərazi toxunulmazlığını və siyasi, iqtisadi suverenliyini təmin etməlidir və mən buna böyük ümid bəsləyirəm. Belə hesab edirəm ki, buna nail olmaq Azərbaycan xalqının özünün ixtiyarındadır. Azərbaycan xalqı özü buna nail olmalıdır, heç kəs ona belə bir azadlığı verməyəcəkdir.

*(Ardı var)*

**Fəxrəddin AĞAMİRZƏYEV**
***"Dönüş" qəzeti, 1990-cı il***



## Şəhid və qazi ailələri dövlətimizin himayəsindədir

*Ölkəmizdə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Onların sağlamlığı daim diqqətdə saxlanılır, həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ardıcıl sosial layihələr həyata keçirilir. Bu tədbirlərin əsas istiqamətlərindən biri müəyyən kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilməsidir. Həmçinin ötən dövr ərzində yüzlərlə Qarabağ müharibəsi əlili və şəhid ailəsinə dövlət qayğısı göstərilərək mənzil və avtomobil verilib.*

Bu il noyabrın 13-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailələri və qazilərlə görüşərək 18 nəfərə yeni mənzil, 7 şəxsə isə avtomobil təqdim edib. Bu şəxslərdən biri də evində qonaq olduğumuz 1996-cı il təvəllüdlü Kəngərli rayon Qabıllı kənd sakini, qazi ***Turqut Eyvazov***dur. O, 2020-ci ilin sentyabr ayında hərbi hissənin xüsusi təyinatlı bölməsində müddətdən artıq hərbi qulluqçu kimi xidmət göstərib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində Cəbrayıl, Xocavənd, Füzuli rayonlarının və bəzi strateji yüksəkliklərin azad olunmasında və xüsusi ağır tapşırıqların yerinə yetirilməsində iştirak edib. Müharibə zamanı partlayış nəticəsində baş və sağ qol nahiyəsindən travma alıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib. Bu yaxınlarda dövlətimiz tərəfindən göstərilən qayğı ilə Qıvraq qəsəbəsində ikiotaqlı mənzillə təmin olunub. O deyir: – Bizə göstərilən bu qayğıya görə dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

Bir digər müsahibimiz isə Sədərək rayon sakini, I Qarabağ müharibəsi qazisi ***Etibar Ələkbərov***dur. Ötən əsrin 90-cı illərində sərhədlərimizə qarşı amansız hücumlar zamanı düşmənə qarşı yorulmadan mübarizə aparan qazimiz bizə müharibə zamanı yaşadıqları çətinliklərdən bəhs edir. 1992-ci il may ayının 4-də Sədərək rayonunda postda olarkən yaralandığını deyir. Böyük təəssüf hissi ilə ifadə edir ki, bundan sonra döyüşə davam edə bilməyib. Sağ əl və ayaq nahiyələrindən yaralanan qazimizə dövlətimiz tərəfindən avtomobil təqdim edilib. Dövlətimizə minnətdarlıq edən həmsöhbətimiz deyir ki, dahi rəhbər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Atılan hər bir addım dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu, müharibə iştirakçılarına yüksək diqqət və qayğı göstərildiyini sübut edir.

Mənzil təqdim edilən qazilərimizdən digəri də Sədərək rayonunun Dəmirçi kəndində anadan olan ***Rahib Həsənov***dur. O deyir: – Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı bölgəsində gedən döyüşlərdə iştirak etmişəm. Hərbçi olaraq döyüşlərə qatıldım və öhdəmə düşən borcumu layiqincə yerinə yetirdim. Ən böyük arzum şəhid olmaq olsa da, mənə nəsib olmadı. Cəbrayıldan sonra isə Qubadlıda iki gün mühasirədə qaldıq. "Hər an şəhid olacağam", – deyə düşünürdüm, lakin mühasirədən çıxdıq. Müharibə zamanı yoldaşlarımın şəhid olduğunu görmək bizlər üçün sözlərlə ifadə edilə bilməyəcək qədər ağır idi. Amma qəlbimizdəki Vətən sevgisi bizi irəli getməyə, düşməni məhv etməyə, torpaqlarımızı azad etməyə səsləyirdi. Döyüş zamanı Qubadlı rayonunun Muradxanlı kəndində yaralanaraq qapalı kəllə-beyin travması aldım. Bu yara məndə həmişəlik travmalar yaratdı. Lakin artıq torpaqlarımızın düşmən tapdağından azad olunduğunu görmək bizə yaralarımızı unutdurur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşam. Ötən günlərdə isə dövlətimiz tərəfindən mənzillə təmin olunmuşam. Bizə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdaram.

*Göründüyü kimi, dövlətimiz tərəfindən şəhid ailələri, qazilər daim diqqət mərkəzindədirlər. Davamlı olaraq onların rifah səviyyəsinin yaxşılaşdırılması üçün mühüm addımlar atılır. Bu addımlar isə cəmiyyətimiz tərəfindən böyük minnətdarlıqla qarşılanır.*

**✍ Sürəyya QƏDİMƏLİYEVA**
**✍ Bülbül QULİYEVA**

2023-cü il “Heydər Əliyev İli”dir



# Heydər Əliyev: “Sizi öz balam kimi sevirəm və sizi öz balam hesab edirəm...”

***Hər bir il tarixdə öz adı ilə qalır. 2023-cü il isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş “Heydər Əliyev İli” kimi qalacaq.***

Zəmanəmizin böyük və yenilməz dövlət xadimi, siyasətçi və mütəfəkkiri, görkəmli diplomatı Ümummilli Lider Heydər Əliyevin parlaq həyatı uşaqların, gənclərin və yeniyetmələrin tərbiyəsində və yetişməsində böyük rol oynamışdır.

Ulu Öndərin həyat və fəaliyyətinin nümunəsində uşaq və gənclər Vətənə sədaqət və məhəbbət, öz millətini sevmək və ucaltmaq, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirmək, respublikanın müstəqillik prinsiplərinə sadiq qalmaq ruhunda tərbiyə olunurlar.

Xalqımızın başına gətirilən bəlalar, onun qan yaddaşına əbədi həkk olunan 20 Yanvar, Xocalı soyqırımı hər birimizin qəlbini dərindən göynədir. Günahsız və məsum körpələri vəhşilərin süngüsündə görmək qədər dəhşətli hal ola bilməz. Belə bir anımızda bütün el-oba kimi, uşaqların da harayına, imdadına Ulu Öndərimiz yetişdi. Müdriklərdən biri çox haqlı olaraq deyib: *“Dünyanın bütün ağrıları qeyri-adi adamların çiyinləri üstündədir. Qeyri-adilər olmasaydı, dünya nə qədər adi olardı”*. Doğrudan da, Ulu Öndər Heydər Əliyev qeyri-adi bir qüvvəyə malik insan kimi Vətən torpağının bir hissəsinin düşmən tapdağı altında inlədiyi bir vaxtda körpələrin fəryadına həyan durdu, onları qanadları altına aldı, xoşbəxt günlərə çatdırdı.

Dünyaya göz açan hər bir uşaq ailəyə sevinc, fərəh gətirir. Onların qığıltısı ən əziz nəğmə kimi sevilir. Uşaqların parlaq sabahları üçün heç bir səyi əsirgəməyən Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: ***“Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi isə sağlam, Vətənə məhəbbət ruhunda böyütməliyik...”*** Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı həmişə hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur... Ata-analar uşaqlarını qorumağı, saxlamağı, böyüdüb tərbiyə etməyi öz həyatının mənası və məqsədi hesab ediblər. Bu, əcdadlarımızdan, ulu babalarımızdan bizə qalan ənənədir, nəsihətdir, irsdir. Biz də bu ənənəyə sadiqik. Bizim borcumuz bu ənənələri dərinləşdirmək, genişləndirmək, daha da inkişaf etdirməkdən ibarətdir.

Bəzən düşünürsən ki, dahi şəxsiyyət Heydər Əliyev niyə uşaqları bu qədər çox istəyib, onları dünyalar qədər sevib. Yada tanınmış yazıçı Ekzüperinin dahiyanə fikirləri düşür: *“... Hamı öz uşaqlığından gəlir”.*

Görkəmli dövlət xadimi Heydər Əliyev də öz halal zəhməti ilə övlad böyüdən bir ailədə dünyaya gəlib, valideyn öyüd-nəsihəti alıb, ata çörəyi yeyibdir. Bu halallığın nəticəsidir ki, ata-ana arzusunu həqiqətə çevirib, onların ümidlərini doğruldub, dünyanın tanınmış siyasi xadimi olubdur.

“Şərqin parlaq ulduzu” adlandırılan xalqımızın böyük oğlu uşaqlıq illərindən aldığı təlim-tərbiyə, əməyə vurğunluğu sayəsində respublikamıza rəhbərliyi dövrünün hər iki mərhələsində özünü əsl vətəndaş, millət, xalq, Vətən mücahidi kimi təsdiqləmişdir. O, Azərbaycanda uşaqların qayğısız böyüməsi, sağlam vətəndaş kimi yetişmələrinə hərtərəfli diqqət göstərilməsi, qorxulu və yoluxucu uşaq xəstəliklərinin kökünün kəsilməsi, atılmış, sahibsiz uşaqlara dövlət himayəsinin artırılması, uşaq xəstəxanaları, internat məktəbləri şəbəkəsinin genişləndirilməsi, bağçalar, məktəblər tikilməsi, yaradıcı, istedadlı uşaqların qayğı ilə əhatə olunması üçün dövlət səviyyəsində saysız-hesabsız tədbirlər həyata keçirmişdir.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdandan sonra dahi rəhbərin ciddi səyi və siyasi təcrübəsi nəticəsində əldə edilən atəşkəs sazişi yüzlərlə günahsız uşağı ölümdən, yurdsuz-yuvasız qalmaqdan, atasız-anasız böyüməkdən, şikəst olmaqdan xilas etdi. Elə buna görə də uşaqlar Ulu Öndərimizi çox sevir, özlərini “Heydər babanın nəvələri” adlandırırlar.

Ümummilli Liderimizin körpə balalara, onların sabahına inamı sonsuz və qəti olmuşdur: ***“Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə millətimizin, ölkəmizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu bizim müqəddəs borcumuzdur”.*** Bu müdrik sözlərin sahibi Ulu Öndər öz müqəddəs borcunu yerinə yetirdi, uşaqları bəlalardan, müharibələrdən, ölümlərdən xilas etdi və respublikamızın hər bir guşəsindəki körpə balalar bu borcun sayəsində azad, xoşbəxt yaşayırlar. Məhz buna görə də ölkəmizin hər yerində Onun doğum günündə keçirilən məktəblilərin ənənəvi müəllif şeirləri müsabiqəsində oxunan yazılarda fidan balaların dahi rəhbərə olan məhəbbətləri bulaq suyu kimi saf və durudur. Həmin müsabiqələrin birində birinci yer tutmuş məktəbli Özgün Əsgərova “Xilaskar Öndərimsən” şeirində deyir:

*Vətən namus, qeyrətin,*
*Ucalıbdır şöhrətin,*
*Səni sevir millətin,*
*Babamsan, Heydərimsən,*
*Xilaskar Öndərimsən.*

Azərbaycanın dövlət müstəqilliyinin əbədi olacağına, gənc nəslin Azərbaycanın torpaqlarını düşmənlərdən təmizləyəcəyinə, daha da yüksəklərə qaldıracağına inanan Ulu Öndərimiz öz sevgisini uşaqlara belə çatdırmışdır: ***“Ümumiyyətlə, uşaqları görəndə hər bir yaşlı insan, yaxud ata-ana, valideyn sevinir. Çünki uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir. Hər bir insan üçün dünyada uşaqlardan istəkli heç bir şey ola bilməz. Mən də həyatımda daima uşaqları sevmişəm. Öz balalarımı da sevirəm. Amma sizin hamınız mənim balalarımsınız, sizi öz balam kimi sevirəm və sizi öz balam hesab edirəm”.***

Bəli, Ulu Öndərin arzuları çin oldu. Onun ümid bəslədiyi sevimli balaları Vətənə, Vətən torpağına məhəbbətlə böyüdülər. Onlar ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək “Dəmir yumruğ”a çevrildilər. Gözəl Qarabağımızı işğal edən erməni vəhşilərini 44 günə məhv etdilər. Bu qələbəni dahi rəhbərin qoruduğu, yetişdirdiyi o kövrək balalar Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilməklə Qarabağı əbədi olaraq Azərbaycana qaytardılar.

Bu gün uşaq evlərinin, bağçaların, məktəblərin Günəşə açılan geniş və işıqlı pəncərəsindən xoşbəxt uşaqların şən mahnıları göylərə yüksəlir:

*Gülüstana dönübdü*
*Yurdumuzda el-oba.*
*Bu möhtəşəm dövlətin*
*Memarı Heydər baba!*

*Heydər baba, həyatda*
*Bu gün, sabah da varıq.*
*Firavan günlər üçün*
*Biz sənə minnətdarıq.*

**İbrahim YUSİFOĞLU**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, Azərbaycan Respublikasının Təhsil əlaçısı***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi hafizəmə unudulmaz anlar yazıb




“Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq” rubrikasının növbəti qonağı Polşa Azərbaycanlıları Şurasının icraçı direktoru Yusif Məmmədovdur. 1997-ci il dekabrın 30-da Füzuli rayonunun Horadiz şəhərində dünyaya göz açan Yusif Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib, 2019-2021-ci illərdə İtaliyanın Roma şəhərində fəaliyyət göstərən La Sapienza Universitetində Beynəlxalq hüquq fakültəsi üzrə magistr təhsili alıb. 2021-ci ildə Polşanın Varşava şəhərinə köçüb və orada Polşa Azərbaycanlıları Şurası diaspor təşkilatı ilə tanış olub. Əmək fəaliyyətinə həmin təşkilatda başlayan bu istedadlı, bacarıqlı gəncimiz iki ildir ki, şuranın icraçı direktorudur. Rəhbərlik etdiyi dövrdə 100-dən çox tədbir reallaşdıran təşkilatın fəaliyyəti barədə deyir:



– Polşa Azərbaycanlıları Şurası hazırda Avropada tanınan aktiv diaspor təşkilatlarından biridir. Artıq şuranın 1000-dən çox üzvü vardır, qayəsi Polşada yaşayan həmvətənlərimizi vahid ideya – Azərbaycançılıq ətrafında birləşdirmək, işlərində, fəaliyyətlərində dəstək göstərməkdir. Bu il Novruz bayramı tədbirimizdə könüllü şəkildə təşkilatın 250-300 üzvü iştirak edirdi. Xocalı soyqırımı ilə bağlı aksiyalara 300-500 nəfərlə qatılmağa çalışırıq. Bu da, təbii ki, yer sayının məhdudluğu ilə əlaqədardır. Hazırda bizim mühüm bir layihəmiz vardır. Bu sayədə biz Polşada yaşayan azərbaycanlı gəncləri maarifləndirərək onları müxtəlif sahələr üzrə irəli çəkmək istəyirik. Belə ki, biz artıq ötən ilin noyabr ayından indiyədək 170 azərbaycanlını müxtəlif banklarda işlə təmin etmişik. Onlar tələbə olduqlarından işlə bağlı elə də zəngin məlumatları yox idi. Biz onları könüllü müəllimlərimizin köməkliyi ilə təmənnasız olaraq Varşavadakı Azərbaycan Evində 3 ay müddətində hazırlaşdırdıq və istədiyimizə nail olduq. Hazırda onlar dünyanın ən tanınmış banklarında aparıcı vəzifələrdə çalışır və yaxşı məvacib alırlar. Həlalik ən yaxşı nailiyyətlərimizdən biri budur.

Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olan 2023-cü ilin həm onun, həm də rəhbərlik etdiyi şura üçün əlamətdar, yaddaqalan keçdiyini deyən Yusif Məmmədov bildirir ki, bu ilin avqust ayında iştirakçısı olduğu Diaspor Gənclərinin IV Yay Düşərgəsi hafizəsinə unudulmaz anlar yazıb: – Sözün düzü, düşərgənin Naxçıvanda təşkili marağımı çox çəkdi, çünki ilk dəfə idi ki, oraya gedəcəkdim və çox istəyirdim ki, ölkəmizin ictimai-siyasi həyatında böyük önəm kəsb edən bu diyarla əyani tanış olum. Düşərgəyə qatılmaq üçün 500 gənc müraciət etmişdi və çox şadam ki, onlar arasından mən də seçildim. Havanın isti olmasına baxmayaraq, tarixi yerləri gəzmək, təamlardan dadmaq çox gözəl hisslər, müsbət emosiyalar yaşatdı. Naxçıvanda qovurmanın dadına baxdım, çox bəyəndim. Əminəm ki, düşərgədə iştirakımız gələcəkdə diaspor fəaliyyətimizdə çox faydalı olacaq. Mən artıq bu sayədə Çində yaşayan azərbaycanlını tanıdım, oradan məlumat lazım olduqda ala bilirəm.



Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun qazandığı Tarixi Qələbədən, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpasından narahat olan ermənilər zəfərimizə kölgə salmaq məqsədilə bu ilin oktyabr ayında Varşavada 50-70 nəfərlə aksiya keçirib. Bunu bilən Yusif Məmmədov rəhbəri olduğu Polşa Azərbaycanlıları Şurasının ətrafına toplaşan azərbaycanlılarla birgə cavab tədbirləri görüb. Belə ki, dərhal şəhər merinə müraciət edərək Varşavanın mərkəzi küçələrini 1 saat 30 dəqiqə müddətinə bağlatdırıb, yüzlərlə həmvətənimizlə möhtəşəm bir həmrəylik aksiyası keçiriblər: – Tədbirimizin adı “Sülh yürüşü” adlanırdı və yüzlərlə azərbaycanlı 2 kilometr yol boyunca Azərbaycan həqiqətlərini əks etdirən şüarlar səsləndirdilər. Aksiyada polyak, ingilis dillərində “Azərbaycan sülh istəyir, ermənilər isə müharibə!”, “Erməni yalan xəbərlərinə inanmayın!”, “Erməni mina terroruna səssiz qalmayın!”, “Azərbaycanın ərazi bütövlüyünə hörmət edin!” və digər onlarla şüarlar səsləndirildi. Şəhərin mərkəzinə çatdıqda artıq minlərlə polşalı bizi izləyirdi, kontekstimizdə olmayan bir şüarı meqafonla səsləndirdim: “Khankendi is Azerbaijan!” Sanki yüzlərlə soydaşımız illərdir, bu anı gözləyirmiş. Qələbəmizin də verdiyi qürurla hər kəs uca səslə “Xankəndi Azərbaycandır!” – deyə qışqırdı. Tədbirin sonunda polyak polislər mənə bildirdilər ki, ilk dəfədir, belə yüksək səviyyəli aksiya görürük, polyak mediaları da əvvəllər belə möhtəşəm aksiya keçirilmədiyini yazırdılar.

Sosial şəbəkələrdən, dostluğunda olan insanların paylaşımlarından dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizlə bağlı “Şərq qapısı” qəzetində yazıların dərc ediləcəyini öyrəndiyini deyən Yusif son olaraq rubrikamız barədə də fikirlərini bölüşdü: – Mən də xarici ölkədə yaşayan bir azərbaycanlı gənc kimi bu həmrəylik işində iştirak etdiyim üçün çox şadam. Bildiyimiz kimi, bu il Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi geniş şəkildə qeyd olundu. Eyni zamanda da 1991-ci il dekabrın 16-da Ulu Öndərimizin Naxçıvan Muxtar Respublikasında dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoyan tarixi addımından 32 il ötür. Bu baxımdan müasir müstəqil Azərbaycanımızın qurucusu Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri münasibətilə irəli sürülən bu təşəbbüsü alqışlayır və qəzetin fəaliyyətinə uğurlar arzulayıram.

**Nail ƏSGƏROV**

# Naxçıvanda yeni fəaliyyət göstərən qızlar yataqxanasında hər cür şərait mövcuddur



*Naxçıvan şəhərində bu ilin sentyabr ayından etibarən "Marka Metal Əritmə" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müasir standartlara cavab verən qızlar yataqxanası tələbələrin ixtiyarına verilib.*

"Marka Ladies Dormitory" adı ilə fəaliyyətə başlayan yataqxanada olduq, oranın şəraiti ilə yaxından maraqlandıq. Yataqxananın müdiri Firuzə Sadiqova bizi məlumatlandıraraq bildirdi ki, mansar ilə birlikdə 7 mərtəbədən ibarət yataqxananın birinci mərtəbəsində qeydiyyat bölməsi, inzibati otaq və kafe fəaliyyət göstərir. Yataqxana binası 182 nəfər tələbə üçün nəzərdə tutulub, hazırda 81 qız tələbə qeydiyyatdan keçib. Yataqxanada tələbələrin hər bir şəraitlə təmin olunması üçün bütün detallar nəzərə alınıb. Ümumi sahəsi 3850 kvadratmetr olan yataqxanada yataq və yataq dəsti, yazı masası və stulu, şəxsi əşyaların yığılması üçün dolab, televizor və internet, mərkəzləşdirilmiş istilik sistemi, kondisioner, tələbə yeməkxanası, otaqlarda hamam və sanitar qovşağı, tibb otağı, 3 ədəd lift, camaşırxana yerləşir. Burada yerli və xarici tələbələr qalır və 4 nəfərlik 7, 3 nəfərlik 20, 2 nəfərlik 47 olmaqla, ümumilikdə, 74 otaq vardır. Binaya giriş və çıxış kart sistemi vasitəsilə həyata keçirilir. Yataqxananın birinci mərtəbəsində ayrıca bölmədə "Osmanlı sofrası" restoranı fəaliyyət göstərir. Həmçinin istirahət üçün həyətyanı sahəsi olan yataqxanada havalandırma sistemi və təhlükəsizlik kameraları quraşdırılıb.



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Çinarə Balayeva qeyd etdi ki, Naxçıvanda həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti əhalinin həyat səviyyəsinin yüksəlməsinə və yeni xidmət növlərinin fəaliyyət göstərməsinə şərait yaradır. Bu sahədə xidmətin səviyyəsinin daha da yüksəldilməsi üçün cari ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2 layihənin maliyyələşdirilməsinə 215 min manat vəsait ayrılıb. Yataqxananın yaradılması üçün 1 milyon manat vəsait sərf olunub ki, bunun 800 min manatı sahibkarın şəxsi vəsaiti, 200 min manatı isə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən kredit vəsaitidir.

Yataqxanada qalan Türkiyə və İran vətəndaşı olan xanımlarla həmsöhbət olduq. ***Nazlı Yürek*** İstanbul şəhərindən gəldiyini və Naxçıvan Dövlət Universitetində təhsil aldığını dedi. Yataqxanadan razılığını bildirən Nazlı bunları qeyd etdi: – Naxçıvana gələndə "Marka" qızlar yataqxanasının adını eşitdim. Bir az araşdırma etdim. Bura təhlükəsizlik, təmizlik, eyni zamanda keyfiyyət baxımından fərqlənirdi. Artıq üç aydır, buradayam. Yataqxanada çalışanlarla və digər qızlarla bir ailə kimi olmuşuq. Onlar həyatımızda olan çətinliklərdə bizim yanımızdadırlar. Bura mənim ikinci evim oldu. Burada vaxtımızı səmərəli etmək üçün bir çox fəaliyyətlər təşkil olunur. Bizimlə maraqlanan, sevgi göstərən yataqxana əməkdaşlarına təşəkkür edirəm.

***İnci Doğan*** "Naxçıvan" Universitetində Hüquq üzrə hazırlıq qrupundadır. Türkiyənin Adana şəhərindən gəlib: – Naxçıvanda təhsil almağı ailə üzvlərimdən biri məsləhət gördü. Azərbaycanı çox sevirik. Naxçıvana da tez isindik. Yataqxanada birinci ilimdir. İlk dəfə gəldiyimdə ailəm qalmaq üçün çox yer axtardı. Bizə geniş imkanlar təklif edən bu yataqxananı tapdıq.



Təhsilimi bitirənə qədər burada qalmağı düşünürəm.

***Zəhra Həsənpuri*** İran vətəndaşıdır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin stomatologiya ixtisasında oxuyur. Uşaqlıqdan həkim olmaq arzusu olduğunu bildirir: – Naxçıvanı seçməkdə məqsədim bizə çox yaxındır, təhlükəsizdir, dil cəhətdən rahatdır. Mən də ilk gəldiyimdə yataqxana problemi ilə üzləşdim. Lakin hər cür şəraitlə təmin olunmuş "Marka Ladies Dormitory" yataqxanası mənim üçün çox yaxşıdır. Burada rahatıq, dərslərimizə yaxşı hazırlaşa bilirik, müxtəlif fəaliyyət növləri vaxtımızı əyləncəli edir. Burada tibb otağı fəaliyyət göstərir ki, bu da sağlamlığımızın qorunmasında bizə kömək olur.

*Yataqxananı gəzdik. Bəli, burada qalan qızların da dediyi kimi çox rahat, müasir yataqxanadır. Bu ildən fəaliyyət göstərən qızlar yataqxanasının fəaliyyətinə uğurlar arzu edirik.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan şəhərində reyd keçirilib

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən Naxçıvan şəhərinin müxtəlif küçə və prospektlərində reydlər keçirilib. Məqsəd dayanma və durma qaydalarına riayət etməyən, həmçinin təhlükəsizlik kəmərindən düzgün qaydada istifadə etməyən sürücüləri aşkarlamaq olub.*





Hərəkətin intensiv olduğu küçə və prospektlərdə keçirilən reyd zamanı 100-ə yaxın sürücü saxlanılıb. Onların 14-ü barədə inzibati protokol tərtib edilib.

Bununla yanaşı, reyd zamanı polis əməkdaşları tərəfindən sürücülər arasında maarifləndirmə və təbliğat işləri də aparılıb.

Naxçıvan DİN-in DYPİ-nin əməkdaşı, polis kapitanı Ayaz İsmayılov deyib ki, keçirilən reyd sürücülərin təhlükəsizlik kəmərindən düzgün istifadə etməməsi, dayanma və durma qaydalarının pozulması ilə bağlıdır. Təəssüflər olsun ki, araşdırmamız zamanı məlum olur ki, şəhərimizdə bəzi sürücülər hələ də təhlükəsizlik kəmərindən düzgün istifadə etmir, onları başı üzərindən keçirirlər. Bu da onun mahiyyətini tamamilə sıfra endirir. Sürücü və sərnişinlərimiz kəməri 3 nöqtə prinsipinə əsaslanaraq sinə və qarın boşluğundan keçirməlidir ki, onun etibarı tam təmin olunsun. Eyni zamanda dayanma və durma qaydalarının pozulması ilə bağlı bəzi sürücülərə iradlarımız oldu, onlarla maarifləndirici söhbətlər apardıq. Bəzilərinə isə müvafiq qaydada inzibati protokol tərtib edildi.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən bildirilib ki, Dövlət Yol Polisi İdarəsi tərəfindən reydlər davam etdiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

*Redaksiyamıza məktub*

# Həyat bəxş edən ömür

***Hörmətli redaksiya!*** Bu yazını qələmə almaqda məqsədim dünyanın ən qiymətli sərvəti olan insanlara göstərilən səhiyyə xidməti barədədir. Heç kimə sirr deyil ki, bu gün ölkəmizdə inkişaf və tərəqqi bütün sahələrdə olduğu kimi, tibb sahəsində də özünü göstərməkdədir. Bunu Naxçıvan Muxtar Respublika Xəstəxanasının, burada çalışan tibbi heyətin fəaliyyətində də görmək olar. Son illərdə dövlət başçısının diqqət və qayğısının ifadəsi kimi bu səhiyyə ocağının binasının müasir standartlar əsasında yenidən qurulması, xəstəxananın maddi-texniki bazasının yenilənməsi, insanlara göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. Belə xidmət sahiblərindən biri də Nevrologiya şöbəsində çalışan, bütün xəstələrin sevimlisi olan həkim Səkinə Mirzəyevadır.



Müayinə və müalicə üçün ilk dəfə xəstəxanaya gələrkən maraqlı bir hadisənin şahidi oluram. Qeydiyyat şöbəsində məndən əvvəl növbəyə duran xəstələrin çoxu Səkinə xanımı öz həkimi kimi seçirdi. Mən də haqqında eşitdiyim üçün onu seçdim. Həkimin yanına getdim. O mənə diqqətlə baxıb dedi: "Yunis müəllim, çox həyəcanlısınız". Dedim ki, Səkinə xanım o qədər xəstə sizi öz həkimi kimi seçdi ki, qorxdum ki, mənə vaxtınız çatmasın.

Bəzən həkimlik sənətini Günəşə, şama, torpağa bənzədirlər. Səkinə həkim öz nurunu bütün xəstələrə bərabər paylayan Günəş, öz ziyasını onun ətrafına eyni səviyyədə paylayan şam, öz barını-bəhrəsini insanlardan əsirgəməyən torpağa bənzəyir.

Səkinə həkimlə bir yerdə işləyən tibb bacısı ***Sahilə Hüseynova***: – Səkinə həkimlə bir yerdə işləmək mənə zövq verir. Kənardan baxanlar hiss etməzlər ki, mən tibb bacısı o isə həkimdir. Bacarıqlı həkim və gözəl insandır.

Xadimə ***Şəlalə Musayeva***: – Qayğıkeşdir, bizə arxa-dayaq olur. Hər bir problemimizi həll etməyə çalışır. Bizə, ana-bacı olub. İşçilərlə sadə münasibətdədir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin həkim-rezidenti ***Banu Mehdi***: – İlk gündən Səkinə xanım haqqında təəssüratım çox yaxşı oldu. Şöbə müdiri olmasına baxmayaraq, həmkarları ilə münasibəti xüsusən diqqətimi çəkdi. Xəstələrə qayğı və nəvazişlə yanaşır.

Səkinə həkimin xəstəsi ***Mehman Vəliyev***: – İlk gündən Səkinə həkimin diqqət və qayğısı üzərimdə olub. Şöbənin bütün tibb işçiləri gündəlik olaraq xəstələrin səhhəti ilə ciddi maraqlanır, məsləhətlərini verirlər. Ümumiyyətlə, Nevrologiya şöbəsinin bütün tibb işçilərinin göstərdiyi diqqət və qayğı nəticəsində ümidvaram ki, sağlamlığıma qovuşacağam.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin nevroloq həkim-rezidenti ***Səba Cəlilli***: – İlk gəlişimizdən bizə xüsusi diqqət və qayğı göstərib. Bizim üçün ayrıca otaq ayırıb. Bu sahəni öyrənməyimizdə, mütəxəssis-həkim kimi yetişməyimizdə böyük əməyi vardır. Həm peşəkar həkim, həm də yüksək insani keyfiyyətlərə malik bir Azərbaycan xanımıdır.

O, sadə bir ömür yaşayır – həkim ömrü. Lakin böyük bir sirr, sehr, qeyri-adilik var bu sadəlikdə. Qəlbinin odu ilə yüzlərlə xəstəyə ömür bəxş edə-edə, xəstələrin ömrünə həyat qata-qata, nur paylaya-paylaya bir ömür yaşayır Səkinə həkim.

Xalqımızın mütəfəkkir, filosof şairi, dünya ədəbiyyatının əlçatmaz, ünyetməz zirvələrindən biri olan Nizami Gəncəvi sanki aşağıdakı misraları Səkinə həkim haqqında yazmışdır:

*Çalış, öz xalqının işinə yara,*
*Geysin əməyinlə dünya zərxara.*

**Yunis QULİYEV**
***Şahbuz rayonundakı A.Quliyev adına Kükü kənd tam orta məktəbinin təqaüdçü müəllimi, "İlin ən yaxşı müəllimi"***

# Elan

"Naxçıvan" Universiteti müvafiq kafedralar üzrə Kafedra müdiri vəzifəsinə vakant yerləri tutmaq üçün müsabiqə elan edir. Müsabiqədə aşağıdakı şərtləri ödəyən Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

*1. Kafedra müdiri vəzifəsinə müvafiq kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına malik olmalıdır;*

*2. Ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik olmalıdır;*

*3. Elmi ad və elmi dərəcəyə malik olmalıdır.*

Kafedra müdiri vəzifəsi üçün vakant yerləri tutmaq istəyən namizədlər "Naxçıvan" Universitetinin Tədris şöbəsinə müraciət edə bilərlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- *kadrlar uçotunun şəxsi vərəqəsi;*
- *tərcümeyi-hal;*
- *ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;*
- *elmi və elmi-metodiki işlərin siyahısı;*
- *kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması*

Kafedralar üzrə vakant yerlər aşağıdakı kimidir:

*Təbiət elmləri kafedrası müdiri*
*Riyaziyyat və informatika kafedrası müdiri*
*İdarəetmə kafedrası müdiri*
*Pedaqogika və psixologiya kafedrası müdiri*
*Xarici dillər kafedrası müdiri*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi. Telefon: (036)545-07-45***

***İtmişdir***

Şərur rayonunun Çərçiboğan kənd sakini Ramazanov Habil Vəli oğlunun adına olan 102013002101 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 704